# 01 Tanrının Padşahlığına Girmək

## Yəhya 3:1-21

1 Fariseylər arasında Nikodim adlı bir Yəhudi rəhbəri var idi. 2 O, gecə ikən İsanın yanına gəlib
dedi: «Rabbi, bilirik ki, Sən Tanrının yanından gələn bir müəllimsən. Çünki Tanrı ona yar olmasa,
heç kəs Sənin göstərdiyin əlamətləri edə bilməz». 3 İsa ona cavab verdi: «Doğrusunu, doğrusunu
sənə deyirəm: bir kəs yenidən doğulmasa, Tanrının Padşahlığını görə bilməz». 4 Nikodim Ondan
soruşdu: «Yaşa dolmuş bir adam necə yenidən doğula bilər? O, ikinci dəfə anasının bətninə girib
doğula bilərmi?» 5 İsa cavab verdi: «Doğrusunu, doğrusunu sənə deyirəm: bir kəs sudan və Ruhdan
doğulmasa, Tanrının Padşahlığına daxil ola bilməz. 6 Bəşərdən doğulan bəşərdir, Ruhdan doğulan
ruhdur. 7 Sənə "yenidən doğulmalısınız" dediyimə heyrət etmə. 8 Yel istədiyi yerdə əsir, onun səsini
eşidirsən, amma haradan gəlib haraya getdiyini bilmirsən. Ruhdan doğulmuş adam da
belədir». 9 Nikodim «Bu şeylər necə ola bilər?» deyə soruşdu. 10 İsa ona cavab verdi: «Sən İsrailin
müəllimisən. Bunları bilmirsənmi? 11 Doğrusunu, doğrusunu sənə deyirəm: biz bildiyimizi
söyləyirik, gördüyümüzə şəhadət edirik, amma siz bizim şəhadətimizi qəbul etmirsiniz. 12 Əgər Mən
sizə yerdəki işlərdən danışanda inanmırsınızsa, göydəki işlərdən danışsam, necə
inanacaqsınız? 13 Heç kəs göyə çıxmayıb, yalnız göydən enmiş Bəşər Oğlu orada olub. 14 Musa
çöldə ilanı yuxarı qaldırdığı kimi Bəşər Oğlu da yuxarı qaldırılmalıdır ki, 15 Ona iman edən hər kəs
əbədi həyata malik olsun». 16 Çünki Tanrı dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə
etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun. 17 Tanrı dünyanı
mühakimə etmək üçün deyil, Oğlunun vasitəsilə xilas etmək üçün Onu dünyaya göndərdi. 18 Ona
iman edən mühakimə olunmur, iman etməyənsə artıq mühakimə olunub, çünki Tanrının vahid
Oğlunun adına iman etməyib. 19 Mühakimə bundan ibarətdir ki, dünyaya nur gəldi, amma insanlar
qaranlığı nurdan daha çox sevdilər, çünki əməlləri şər idi. 20 Pislik edən hər kəs nura nifrət edər,
əməllərinin üzə çıxmaması üçün nura tərəf gəlməz. 21 Həqiqətə əməl edənsə nura tərəf gələr ki,
əməllərini Tanrı naminə etdiyi bəlli olsun.

## Sorular:

- Yenidən doğulmaq nəyə görə lazımdır? (3 və 5)
- Tanrı Öz Oğlunu niyə dünyaya göndərdi? (16-18)
- Tanrının Padşahlığı haqqında nə öyrənirik?
- İşıq və qaranlıq haqqında sözlər bizim üçün nə deməkdir?
- Burada öyrəndiklərinizi kiminlə bölüşmək istərdiniz?